A.Bestujev-Marlinski

# Dərbənd civarından məktub...

(Qafqaz qeydlərindən...)

...Döyüşdən sonra barışıq o qədər gözəldir ki, bunu ancaq günün günortasında, sərin bir yerə çəkilib nəfəs dərmək əvəzləyə bilər. Və yaxud elə bil, üzücü, canalan bir xəstəliyin ortasında ağrın birdən-birə kəsilir və sən o arada bir hovurluğa gözünün acısını alırsan...

...Birdən-birə hər şey – insanlar da, onların səs-küyü də elə bil yerdən pırtlayıb çıxdı. Qarşıdakı dağın döşü düşmənlə qaynaşırdı. Adamları sanki muncuq kimi sapa düzmüşdülər. Biz birinci dəfəydi ki, düşməni belə yaxından görürdük, bəlkə də ona bir yağı kimi yox, elə-belə maraqla baxırdıq. Aramızda onları hətta sayan da vardı. Saymaqla qurtarandı ki? Yəqin ki, 3-4 mindən az deyildilər. Əllərindəki tüfənglərə söykənib dayanmışdılar. Tüfəngi çiynindən çıxarmayanlar da vardı. Budu, onlar, – yəni dağlılar öz qıllı papaqlarının altından bizə eyni maraqla baxırdı. Onlardan bəziləri çaya enib əl-üzlərini sərin su ilə yumaq, ya da suyu ovuclayıb içərilərindəki təşnəni söndürmək istəyirdi... Və onlar eləcə üzü üstə çaya quylanıb, birbaşa suyu elə axar çaydan içirdilər. Kimisi ovuclayıb ləzzətlə içir, ya da başını sərin suya salıb istidən yaxa qurtarmağa çalışırdı. Hardasa uzaqlarda, sağ qalanlar yaralıları, ya da ki, ölüləri dalına alıb aradan çıxarırdı...

...Dağlıları birinci dəfəydi ki, belə yaxından görürdüm. Maraq o qədər güc gəldi ki,



hətta ehtiyatı yaddan çıxarıb yerimdən sıçradım və qayadan tuta-tuta qorxusuz-ürküsüz körpüyə endim. Ətraf kəndlərin ağsaqqalları, ya da hörmətli adamları camaatnan bir yerdə sınmış körpüyə tərəf gəlməkdəydi. Onların arasında Qazi-mollanın ağ çalmalı müridləri də gözə dəyirdi. Nədənsə onlarnan kəlmə kəsib danışmaq könlümdən keçdi. Sifətindən çox da ehtiyatlı olmayan bir cavana üzümü tutub dedim:

- Qoçaq, salam-aleykum.

- Əleykuməs-salam.

Soruşdum:

- Biznən niyə vuruşursuz axı? Xeyirxah adamlar gərək bir-biriynən dost ola!

- Belə ki, xeyirxahsız, onda sizin burda nə işiniz var?

- Cavan oğlan, davanı siz başlamısız. Gəlmisiz Dərbəndi, Erpili və Tarkodakı camaatı soyub-talamağa.

Oğlan özünü sındırmadı:

- Bizdə kimin ürəyi hara istəyir gedir. Hər yerin mərdi də var, namərdi də!

- Dediyin doğrudu. Eləsə, bəs onda bizim gözümüzün düşməni Qazi-mollanı niyə öz aranızda gizlədirsiz? Onun külfəti də indiyəcən sizdədi.

- Xeyr. Qazi-molla çoxdan çıxıb gedib. Arvadı da dünən qaçıb dağlara sarı getdi... Yaxşısı budu, bura necə gəlmisiz, elə də qayıdın gedin!

- Xeyr, cavan oğlan! Biləsən ki, ruslar öz istəyinə çatmasa, ayaq yeri qoyan deyil. Görürsən ki, arada körpü sınıb, biz quş deyilik ki, qanad açıb o tərəfə uçaq. Eybi yoxdu, lazım olsa bir həftə, lap bir ay burdan tərpənən deyilik. Körpü sallıq, sizin o Sulaq çayını ipə-sapa yatırdarıq. Düzdü, ola bilsin, yarımız burda canını qoyacaq. Amma dəxli yoxdu, əvvəl-axır Çirkeyi, Dərbəndi alasıyıq. Daha onda bizdən aman gözləməyin.

Cavan dağlı balası qaş-qabağını salladı, bir söz demədi; o birilər öz aralarında xısınlaşdılar. Sözümə davam elədim:

- Siz çox yaxşı vuruşduz. Hər bir döyüş də havayı getmir. Yəqin sizdə yaralı, ölən-itən çoxdu, eləmi?

Bu sözümdən sonra dağlıların sifətini

bulud aldı, kədər çulğadı, gözlər bir nöqtəyə zilləndi, bəzilərisə üzünü döndərdi, arxa çevirdi.

- Bu barədə danışmağa dəyməz... - dedilər onlar. – bəndənin bu dünyaya gəlişi də, gedişi də Allahın qismətiynən bağlıdı.

...Sonradan məlum oldu ki, dağlılar bəs demə o döyüşdə 300-dən artıq adam itiriblər. Hətta atılan bir mərmi necə olubsa divarı dəlib keçib, sütunun qabağında partlayıb. Sütun aşan kimi tavan da çöküb və 60 adam elə damın altındaca qalıb...

...Sonra biz tərəfdən danışıqlara – özü müsəlman, böyük alim, hökumətə öz sadiqliyi ilə seçilən mayor Abbasqulu Ağa Bakıxanov göndərildi. Və uzun mübahisə və etirazlardan sonra qarşı tərəfə Rus hökumətinin aşağıdakı şərtləri qəbul etdirildi:

1-ci. Çirkey adlanan ərazi bundan sonra əlahəzrət İmperatora təslim olur və Rus rəislərinin bütün əmrlərini yerinə yetirir:

2-ci. Çirkeylilər nə Qazı-mollanı, nə də onun tərəfdarlarını qəbul etməyəcək.

3-cü. Onlar Qazi-mollanın ələ keçirdiyi silahları toplayıb geri qaytarmalıdır.

Beləliklə, Qafqazın ram olmayan kəndlərindən biri qarşımızda beləcə baş əydi. Əsrlərlə heç bir hökumətə boyun əyməyən insanlar rus silahının zərbini gördü.

***

Dekabrın 1-i ərəfəsində komandirimiz Miklaşevski ürək qızdırdığı bir neçə adamla şam yeməyindəydi. Çox şən görükürdü. Amma hiss olunurdu ki, içəridən hansısa bir sıxıntısı var, arabir hətta onun çöhrəsinə birdən-birə qəm də qonurdu. Nəhayət özü söz açdı:

- Cənablar! – dedi. – Gərək bu şanlı yürüşümüzü başa çatdıraq. Mən öz hökmdarıma, mənə göstərdiyi daimi qayğıya, hətta qısamüddətli məzuniyyətimə görə də ona borcluyam. Odur ki, hökmdarım uğrunda əlimdən gələni əsirgəmərəm. İşimizi başa çatdıran kimi, üzü yaya vətənimə qayıdacağam. Təsəvvürümə gətirirəm, mənim ahıl atam necə sevinəcək?! Hələ özümü demirəm. Mən rus balasıyam. Öz atamın oğluyam, özü də nişanlıyam! Çox şadam ki, general Pankratyev tarixə qanlı möhür qoymaq üçün məni seçib – amma çox şad olardım ki, Qazi-molla buralardan qaçıb gedəydi.



Sonra onun sifətinə yenə kölgə qondu.

- ...Dünən gecə qəribə bir yuxu görmüşəm... Gördüm ki, mənim çadırıma gözü yaşlı, saçları dağınıq gözəl bir qadın girdi. Ağlaya-ağlaya dedi ki: kimsə onu atıb gedib. Düz bir dəqiqədən sonra artıq o qadın mənim ağuşumdaydı və bir mələk kimi nazlanırdı. Məni öpüşlərə qərq etmişdi. Amma, onun öpüşləri buz kimi soyuq, qışın çilləsi kimi dondurucuydu... Və o qızın bədəni də mənim qucağımda asta-asta soyuyurdu. Gördüm ki, o soyuq eynilə mənim də canıma işləyir və özümdən asılı olmayaraq donuram. Ətrafımda camaatı gördüm, hamı bir-birinə qarışmışdı – dostlar, düşmənlər. Burda nə əsir bilinirdi, nə yaralı, nə salamat qalan. Sonra gördüm – Qazi-molla da qaçıb gedib və onun üstündə oturduğu xalça qan içindədir...

...Səhərisi biz ölüm-dirim savaşına çıxdıq. Baha başa gəlsə də qələbə çaldıq. 300-dən artıq qurban vermişdik, yaralı da çoxuydu. Və döyüş qurtaranda, gözümüz qarşısında qəribə bir mənzərə gördük. Ortada – qana bulaşmış şinelin arasında ölən polkovnikin meyiti qoyulmuşdu. Onun alnı necə də məğrur və gözəl idi?! Zabitlər və əsgərlər hönkür-hönkür ağlayırdı. Belə şərəfli ölüm yəqin çoxlarına qismət olmur. Polkovnik Miklaşevski həyatda necə yaşamışdısa, eləcə qəhrəman kimi də həlak olmuşdu!.. Səhərisi düşmənlərin yuvası oda yaxıldı və onların kənd-kəsəyi darmadağın edildi. Ətrafdakı meşələri isə əlimizə balta alıb qırdıq. Sonradan eşitdik ki, Qazi-molla Koysubu aşırımında, uçurumun qanadında özünə yuva quran, ələkeçməz bir kəndə sığınıb. Qazi-molladan başqa onun arvadlarından biri də ordaydı. Görünür, qışı da həmin kənddə keçirmək fikrindəydi. Nə isə, çox keçmədi ki, biz qışlamaya hərə öz evimizə çıxıb getdik və bununla da Dərbənd səfərimiz başa çatdı...

**Dərbənd.1832-ci il**